UOT 378.

***Aynur Fərrux qızı Həsənova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Gəncə Dövlət Universiteti*

# ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ŞƏBƏKƏSİNİN YARANMASI

***Айнур Фаррух гызы Гасанова***
*доктор философии по педагогике*
*Гянджинский Государственный Университет*

# СОЗДАНИЕ СЕТИ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

***Aynur Farrukh Hasanova***
*doctor of Philosophy in Pedagogy*
*Ganja State University*

# THE ESTABLISHMENT OF THE NETWORK OF SUPREME PEDAGOGICAL EDUCATION

**Xülasə:** Məqalə Azərbaycanda ali pedaqoji təhsil, bütövlükdə ali təhsil müəssisələrinin yaradılması tarixindən bəhs edir. Göstərilir ki, ali təhsil müəssisələri uzun bir tarixi yol keçərək təkmilləşmiş və hal-hazırda dünya təhsilinə surətlə inteqrasiya edən tədris-elmi mərkəzlərə çevrilmişdir. Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin, eyni zamanda Ali pedaqoji kadr yetişdirən ali təhsil müəssisələrinin xəritəsi genişdir.

***Açar sözlər:*** *ali təhsil, universitet, institut, kafedra, dekanlıq, fakültə*

**Резюме:** В статье упоминается история высшего образования в Азербайджане и создание высших учебных заведений в целом. Было заявлено, что вузы улучшились в течение долгой истории и стали учебными и научными центрами, интегрирующимися в глобальное образование в настоящее время. В статье дана широкая карта высших учебных заведений, действующих в Азербайджане, а также высших педагогических кадров.

***Ключевые слова:*** *высшее образование, университет, институт, кафедра, кабинет декана, факультет*

**Summary:** The article gives information on the history of supreme pedagogical education in Azerbaijan with the special emphasis on the establishment of all the supreme educational institutions. It is mentioned that the supreme educational institutions have been upgraded over the years and developed into teaching-scientific centers which are currently integrated into the global education. There is a very broad map of supreme educational institutions functioning in Azerbaijan as well as the ones that raise supreme pedagogical personnel

***Key words:*** *high education, university, institute, chair, dean's office, faculty*

Azərbaycanda ali pedaqoji təhsil, bütövlükdə ali təhsil müəssisələri uzun bir tarixi yol keçərək təkmilləşmiş və hal-hazırda Kurppa və Dünya təhsilinə surətlə inteqrasiya edən tədris-elmi mərkəzlərə çevrilmişdir.

Aşağıda göstərilən cədvələ nəzər yetirdikdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin, eyni zamanda Ali pedaqoji kadr yetişdirən ali təhsil müəssisələrinin xəritəsinin necə geniş olduğunu görərik.

Azərbaycandakı ali təhsil müəssisələri (dövlət ali təhsil müəssisələri)

Azərbaycan Dövlət Dəniz Akademiyası, Milli Aviasiya Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan

Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Tibb Universiteti, Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Aqrar Universiteti. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Texnologiya Universiteti, Gəncə Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Politexnik İnstitutu, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Sumqayıt Dövlət Universiteti

**Özəl ali təhsil müəssisələri**: Qafqaz Universiteti, Xəzər Universiteti, Qərb Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Odlar Yurdu Universiteti, Azərbaycan Universiteti, Bakı Asiya Universiteti, Bakı Avrasiya Universiteti, Bakı Biznes Universiteti, Bakı Qızlar Universiteti, Naxçıvan Özəl Universiteti Təfəkkür Universiteti, Azərbaycan Beynəlxalq Universiteti, Azərbaycan İctimai-Siyasi Universiteti.

**Xüsusi təyinatlı ali təhsil müəssisələri**: Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi

Bakı Dövlət Universiteti (BDU) - Azərbaycanın ilk ali təhsil müəssisəsidir. Azərbaycan Demokratik Cümhuriyyətinin Parlamentinin 1 sentyabr 1919-cu il tarixli iclasında Bakıda universitetin təsis edilməsi qərarı qəbul edildi və onun nizamnaməsi təsdiq olundu – Avropa və Asiyanın qovşağında yeni bir ali təhsil ocağı yaradıldı. Universitet ilk tədris ilini 2 fakültə ilə – tarix-filologiya, tibb fakültələri və 1094 tələbə ilə başladı. Universitetin ilk rektoru Qazan Universitetinin professoru, məşhur cərrah V.İ. Razumovski olmuşdur.

Universitetin 1920-1930-cu illərdə aparıcı müəllimləri yazıçı Əbdürrəhim bəy Haqverdiyev, tanınmış şərqşünaslar - professor P.K. Jüze, professor A.O. Makovelski, professor A.O. Mişel və digər alimlər olmuşlar. Həmin dövrlərdə universitet rəhbərliyinin dəvəti ilə Bakıya öz ixtisasları üzrə mühazirələr oxumaq üçün N.Y. Marr, V.V. Bartold, Şərq Elmlər Akademiyasının akademiki Fuad bəy Köprülüzadə universiteti ziyarət etmişlər. Məşhur həmyerlimiz, Nobel mükafatı laureatı Lev Landau 1922-1924-cü illərdə bu universitetdə təhsil almışdır. [1.s 83]

Təəssüf ki, 1930-cu ildə Xalq Komissarlar Sovetinin qərarı ilə yenidən qurulma (reorqanizasiya) adı ilə universitet ləğv edildi və onun bazasında Ali Pedaqoji İnstitut yaradıldı. Ancaq 1934-cü ildə Dövlət Universiteti yenidən işə başladı və o, yenə də respublikada elmi-pedaqoji fikrin mərkəzinə çevrildi. II Dünya müharibəsi illərində professor-müəllimlərin müharibəyə getmələri ilə bağlı kəskin çatışmazlıqlara baxmayaraq, universitet ölkədə öz öncül mövqeyini qoruyub saxlaya bildi. Universitet alimlərinin 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşkil edilməsində xüsusi xidmətləri olmuşdur. Respublikada fəaliyyət göstərən ali təhsil ocaqlarının əksəriyyəti, o cümlədən Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və digərləri məhz Bakı Dövlət Universitetinin bazasında yaradılmışdır.

1969-cu ildən sonrakı illər universitet həyatında bilik və elmin yüksək zirvələrinə doğru yüksəliş illəri sayıla bilər. Bu universitetin dünya şöhrətli məzunu Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi ilə bağlıdır. Geniş bir tarixi dövrü əhatə edən həmin illərdə yeni müasir ixtisaslar üzrə fakültələr, kafedralar, 30-a qədər elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başladı. Beləliklə, universitetin gələcək inkişafı üçün möhkəm zəmin yaradıldı.

Azərbaycanda tədris müəssisələrinin flaqmanı olan, zəngin tarixi keçmişə malik universitet hazırda tanınmış elm və təhsil mərkəzidir [1, 46].

Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) – Azərbaycanın qocaman ali təhsil mərkəzlərindən biridir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti 1921-ci ildə yaradılmışdır. Onun ilk buraxılışı 1923/24-cü tədris ilində olmuşdur. ADPU indiyədək 100 mindən artıq ali təhsilli müəllim kadrları hazırlamışdır. Hazırda universitetdə aşağıdakı ixtisaslar üzrə müəllim və tərbiyəçi kadrları hazırlayan 10 fakültə və 55 kafedra fəaliyyət göstərir:

1. Azərbaycan dili və ədəbiyyatı; (əyani, qiyabi, Azərbaycan bölməsi)

2. Tarix (əyani, qiyabi, Azərbaycan və rus bölmələri)

3. Riyaziyyat (əyani, qiyabi, Azərbaycan və rus bölmələri)

4. Kimya (əyani, Azərbaycan bölməsi)

5. Biologiya (əyani, qiyabi, Azərbaycan və rus bölmələri)

6. Fizika (əyani, Azərbaycan bölməsi)

7. Coğrafiya (əyani, qiyabi, Azərbaycan bölməsi)

8. Peşə təlimi (əyani, qiyabi, Azərbaycan bölməsi)

9. Musiqi təhsili (əyani, Azərbaycan bölməsi)

10. Təsviri incəsənət və rəsmxət (əyani, Azərbaycan bölməsi)

11. Defektologiya (əyani, Azərbaycan bölməsi)

12. İlkin hərbi və fiziki təlim (əyani, Azərbaycan bölməsi)

13. İbtidai təhsilin pedaqogikası və metodikası (əyani, qiyabi, Azərbaycan və rus bölmələri)

14. Məktəbəqədər təhsilin pedaqogikası və metodikası (əyani, qiyabi, Azərbaycan bölməsi)

Universitetdə 730 nəfər müəllim, 330 nəfər köməkçi heyət çalışır. Bunlardan 59 nəfəri elmlər doktoru, professor, 329 nəfəri elmlər namizədi, dosentdir. Universitetdə müxtəlif Elmlər Akademiyalarının 4 nəfər üzvü fəaliyyət göstərir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, müstəqillik illərində Azərbaycan ali pedaqoji təhsilinin inkişaf istiqamətləri ilk dəfə olaraq tədqiqat obyekti kimi tədqiq edilir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ali pedaqoji kadr hazırlığının vəziyyətini öyrənməyə, mövcud problemləri araşdırmağa, ali pedaqoji kadr hazırlığının daha səmərəli yol və vasitələrinin müəyyənləşdirilməsinə kömək edə bilər.

**Problemin aktuallığı.** Ali pedaqoji kadr hazırlığı hər zaman aktual mövzu olmuşdur. Təhsilin hər bir cəmiyyətin sosial-iqtisadi və siyasi tələblərindən asılılığını nəzərə alsaq yeni yaranmış, Müstəqil Azərbaycan Respublikasının gələcək inkişafında onun nə dərəcədə rola malik olmasını zənnimizcə sübut etməyə ehtiyac yoxdur.

**Ədəbiyyat:**

Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006.

E-mail: aynurhesenova@list.ru

**Rəyçi:** *ped. ü. elm. dok., prof.* F.A. Rüstəmov

**Redaksiyaya daxil olub: 15.05.2018**